E-1489

Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,
Üzvlər S.M.Rəsulova, F.İ.Məmmədov

Etiraz verən iddiaçı- **"**Say Plastik ve İnşaat Sanayi Ticaret Limited" şirkəti */ünvan: Ömerlı Mah. 75.Yil Cad. No:10/3 Hadimköy Arnavutköy, İstanbul (TR)/* nümayəndəsi patent müvəkkili T.A.Yaqubovanın iştirakı ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

14.12.2017 il tarixdə **"**Say Plastik ve İnşaat Sanayi Ticaret Limited" şirkətinə */ünvan: Ömerlı Mah. 75.Yil Cad. No:10/3 Hadimköy Arnavutköy, İstanbul (TR)/* məxsus **"SAY"** adlı kombinasiya edilmiş əmtəə nişanının beynəlxalq qeydiyyatının 11-ci sinifin əmtəələri üzrə qeydiyyatından imtina edilməsi barədə ekspertizanın 04 may 2017-ci il tarixli rədd qərarına qarşı iddiaçının patent müvəkkili T.A.Yaqubova tərəfindən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində nəzərdə tutulmuş əsaslara görə Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsində göstərilir ki, iddiaçı "Say Plastik ve İnşaat Sanayi Ticaret Limited" şirkəti 6-cı, 11-ci və 19-cu siniflərin əmtəələri üzrə "SAY" adlı əmtəə nişanını Madrid protokolu əsasında 18.11.2016 il tarixində beynəlxalq qeydiyyatına almışdır və həmin qeydiyyatını Azərbaycan Respublikası ərazisinə şamil etmişdir. "Patent və Əmtəə Nişanları" Publik hüquqi şəxs tərəfindən 04 may 2017-ci il tarixli qərarı ilə 11-ci sinifin əmtəələri üzrə rədd qərarı verilmişdir. İmtina qərarı "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin müddəaların əsasında verilmişdir. İmtina qərarında "Sayım Plastik İnşaat Hırdavat ve Yakıt Maddeleri Sanayi və Ticaret Limited" şirkətinə (TR) məxsus beynəlxalq qeydiyyata alınmış oxşar "SAYIM" əmtəə nişanı verilmişdir.

“Sayım Plastik İnşaat Hırdavat ve Yakıt Maddeleri Sanayi və Ticaret Limited” Şirkəti “Say” adı üzrə “Say Plastik ve İnşaat Sanayi Ticaret Limited” şirkətinə 11-ci sinif əmtəələri üzrə beynəlxalq qeydiyyatı qüvvədə qalması üzrə razılıq vermişdir. “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində qeyd edilir ki, bu Qanunun 6-cı maddəsinin 1-ci hissəsinin “a” və “b” bəndlərinə uyğun olaraq oxşar əmtəə nişanının sahibinin razılıq məktubu və ya başqa razılaşma sənədi əmtəə nişanının ekspertizası mərhələsində, ekspertiza nəticəsində rədd qərarı qəbul edildikdə isə, Apellyasiya şurasında nəzərə alına bilər. Göstərilənləri nəzərə alaraq “Say Plastik ve İnşaat Sanayi Ticaret Limited” şirkətinə 11-ci sinif əmtəələri üzrə beynəlxalq qeydiyyatı üzrə imtina qərarını ləğv edilməsi barədə qərar qəbul edilməsi Apellyasiya şurasından xahiş etmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, etiraz edən patent müvəkkili T.A.Yaqubovanın çıxışını dinləyib hesab edir ki, etiraz təmin olunmalıdır.

Apellyasiya şurası işi araşdıraraq müəyyən etmişdir ki, **“SAY”** adlı kombinasiya edilmiş əmtəə nişanı (IR1343060 beynəlxalq qeydiyyat) 18.11.2016-cı il tarixdə 6-cı,11-ci və 19-cu siniflərin əmtəələri üzrə “Say Plastik ve İnşaat Sanayi Ticaret Limited” şirkətinin adına qeydiyyata alınmış və həmin qeydiyyat 04.05.2017 (2017/16 Gaz) tarixində Azərbaycan Respublikasının ərazisinə şamil edilmişdir.

Ekspertiza rədd qərarında **“SAY”** əmtəə nişanının (**IR 1343060**) qeydiyyata alınmasından imtina edilməsi üçün əsas kimi Azərbaycan Respublikası ərazisində daha əvvəl “Sayım Plastik İnşaat Hırdavat ve Yakıt Maddeleri Sanayi və Ticaret Limited” şirkətinin */ünvanı -Vatan San. Tatlicak Mah. Güvensoy Sk. No. 4 KONYA (TR)/* adına qeydiyyata alınmış 1040255 saylı “SAYIM” kombinasiya edilmiş əmtəə nişanına oxşar olması göstərilmişdir.

İddiaçı “Say Plastik ve İnşaat Sanayi Ticaret Limited” şirkəti “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinə əsaslanaraq 16.10.2017 il tarixində imzalanmış Razılıq məktubunu Apellyasiya şurasına təqdim etmişdir. Həmin Razılıq məktubuna görə “Sayım Plastik İnşaat Hırdavat ve Yakıt Maddeleri Sanayi və Ticaret Limited” şirkəti, “Say Plastik ve İnşaat Sanayi Ticaret Limited” şirkətinə onun **“SAY”** (**IR 1343060)** əmtəə nişanının Azərbaycan Respublikası ərazisində 11-ci sinif əmtəələri ilə istifadəsinə və qeydiyyatına alınmasına razılıq verir.

Şərh edilənlərə əsasən, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin 1-ci, 3-cü hissələrini rəhbər tutaraq və Razılıq məktubu nəzərə alaraq Apellyasiya şurası

Qərara aldı:

1. “Say Plastik ve İnşaat Sanayi Ticaret Limited” şirkətinə məxsus **“SAY”** adlı kombinasiya edilmiş əmtəə nişanının **1343060** saylı beynəlxalq qeydiyyatının 11-ci sinifin əmtəələri üzrə qeydiyyatından imtina edilməsi barədə ekspertizanın 04 may 2017-ci il tarixli rədd qərarına qarşı iddiaçının patent müvəkkili T.A.Yaqubova tərəfindən Apellyasiya şurasına verilmiş ərizə əsaslı hesab olunsun və təmin olunsun.

**2. “SAY”** adlı kombinasiya edilmiş əmtəə nişanının Azərbaycan Respublikasında 11-ci sinif əmtəələri üzrə **1343060** saylı beynəlxalq qeydiyyata alınmasının rədd edilməsi barədə ekspertizanın 04 may 2017-ci il tarixli rədd qərarı ləğv edilmiş sayılsın.

3. **“SAY”** adlı kombinasiya edilmiş əmtəə nişanının Azərbaycan Respublikasında 11-ci sinif əmtəələri üzrə **1343060** saylı beynəlxalq qeydiyyatı Azərbaycan Respublikası ərazisində qüvvədə saxlanılsın.

4. Qeyd olunanlara əsasən Beynəlxalq büroya müəyyən edilmiş qaydada məlumat göndərilsin.

Apellyasiya şurasının sədri Z.T.Hacıyev

Üzvləri: S.M.Rəsulova

F.İ.Məmmədov